

# Zeynal VƏFA

Amansız ölüm tanınmış şair-publisist Zeynal Vəfanı aramızdan apardı.

Zeynalov Zeynal İsmayıl oğlu 2 dekabr 1938-ci ildə Naxçıvan şəhərində anadan olmuş, 1957-1962-ci illərdə ADU-nun filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə Naxçıvanda çıxan "Şərq qapısı" qəzetində başlamış, az sonra Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsində bir çox məsul vəzifələrdə çalışmışdır.

O, Xarici Dillər İnstitutu nəzdində 2 illik ərəb dili kursunu bitirdikdən sonra Yəmən Xalq Demokratik Respublikasında tərcüməçi kimi fəaliyyət göstərmiş, burada departamentin Fəxri fərmanı ilə təltif edilmiş, sonra Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində əmək fəaliyyətini davam etdirmişdir. 1991-1993-cü illərdə "Aydınlıq" və "Meydan" qəzetlərində baş redaktorun müavini vəzifələrində çalışmışdır.

Zeynal Vəfa bədii yaradıcılığa 1955-ci ildə başlamış, "Mənim körpə çinarım", "Qəlbimin səsi", "Əgər sevirəm desən", "Körpələrin xatirinə", "Beşikdən gələn səslər" və s. kitablarını nəşr etdirmişdir. Sözlərinə 70-dən çox mahnı bəstələnib.

Səmimi insan, gözəl ailə başçısı, şair-publisist Zeynal Vəfanın xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**